# Ali Baş Komandanımızın əmrini gözləyirik

Ermənilər, həqiqətən, on dörd - on beşinci əsrlər düşüncəsindən ayrıla bilmirlər. Ayrıla bildikləri yeganə məqam yaşayış yerləridir ki, indi tamamilə başqa ərazilərdə yaşayırlar. Nə zamansa, hansısa xəstə təxəyyüllü şəxsin uydurduğu miflərin təsirindən çıxa bilməyən bu insanlar bütün qonşularına qarşı ərazi iddiaları irəli sürür və heç bir təxribatdan, terrordan, müharibədən çəkinmirlər.

Amma nə yaxşı ki, Azərbaycan dövləti son zamanlar onların həyasızlığına və işğalçılığına məhz erməniyə veriləcək səviyyədə cavab verir. Mən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oktyabrın 10-da Rusiyanın RBK televiziya kanalına verdiyi müsahibəni çox böyük maraqla dinlədim və ertəsi günü qəzetlərdə oxudum. Dövlət başçımızın müasir region həqiqətlərini siyasi ustalıq, diplomat peşəkarlığı və milli təəssübkeşliklə dilə gətirməsindən məmnun oldum.

Məni hər şeydən çox razı salan məqam cənab Prezidentin "Biz axıra qədər gedəcəyik. Biz dayanmamışıq" – ifadələri oldu. Dövlət başçımız xəbərdarlıq etdi ki, əgər erməni tərəfi atəşkəs rejiminə sadiq olarsa, siyasi nizamlama mərhələsi başlanacaq, danışıqlara məcburetmə fazası başa çatacaq. Buna görə biz istənilən halda axıra qədər gedəcəyik: "Bizim məqsədimiz dəyişməz qalır. Azərbaycanın bütün dünya birliyi tərəfindən tanınmış ərazi bütövlüyünün bərpa edilməsi, azərbaycanlıların əvvəlki, ənənəvi yaşadıqları yerlərə, o cümlədən Şuşaya, Dağlıq Qarabağdakı digər yaşayış məntəqələrinə və əlbəttə, keçmiş DQMV-nin inzibati hüdudlarından kənardakı bütün başqa ərazilərə qaytarılması. Buna görə bizim məqsədimiz dəyişməz qalır".

Yeri gəlmişkən, "Xalq qəzeti"nin 13 oktyabr 2020-ci il tarixli sayında oxudum ki, Azərbaycan ziyalıları və vətəndaş cəmiyyətinin üzvləri Birləşmiş Millətlər Təşkilatına, BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvlərinə, Qoşulmama Hərəkatına, Şimali Atlantika Müqaviləsi Təşkilatına (NATO), NATO Parlament Assambleyasına, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına, Avropa İttifaqına, Avropa Şurasına, Avropa Şurasının Parlament Assambleyasına, ATƏT Parlament Assambleyasına, ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinə, Müstəqil Dövlətlər Birliyinə, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığına, UNESCO və UNICEF-ə müraciət ünvanlayıblar.



***Düşmən ağlagəlməz dərəcədə amansız və Allahsızdır. Yatmış, yuxuda olan uşaqların üstünə raket yağdıran məxluqa insan demək olarmı? O, sadəcə vəhşidir. BMT başda olmaqla, bütün beynəlxalq təşkilatlar dünya xalqlarını sülhə, əmin-amanlığa, mədəniyyətlərarası dialoqa çağırdığı bir vaxtda daha çox ərazi işğal etmək üçün başqa ölkələrə qarşı qanlı müharibələrin aparılması orta əsrlər təfəkkürünün nəticəsidir. Bu barbarlıq əməlləri həm də, son 15-20 ildə sivilizasiyalar və mədəniyyətlərarası dialoqa möhtəşəm töhfələr vermiş ölkəyə, onun humanist xalqına qarşı aparıldığına görə bağışlanılmazdır.***

Məhz həmin sənədin mətnini oxuyandan sonra bu sətirləri qələmə almaq qərarına gəldim. Çünki orada deyilən fikirlərin hamısını neçə ildir ki, mən də deyirəm. Mən dəfələrlə qəzetlərdə yazmışam ki, beynəlxalq sülhün və təhlükəsizliyin əsas təminatçısı olan BMT Təhlükəsizlik Şurasının Ermənistan --Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 1993-cü ildə qəbul etdiyi qətnamələrdə Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Azərbaycan ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasının vacibliyi açıq şəkildə tələb edilirsə, həmin sənədlər nə üçün icra olunmur? Eyni zamanda, həmin qətnamələrdə Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi təcavüzkar addımlar qınanır, münaqişə tərəfi olmayan mülki şəxslər qorunur və ərazi əldə etmək üçün güc tətbiqinin yolverilməz olduğu vurğulanır. Eyni zamanda, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq aləmdə tanınmış sərhədlərinin toxunulmazlığı qeyd olunur.

Bütün bunlara görə cəzalandırılmalı, ən azı sanksiyalara məruz qalmalı olan Ermənistan dövləti son günlər öz vəhşi xislətini daha quduz formada nümayiş etdirir. Son hücumlar nəticəsində döyüş bölgələrindən kənarda yerləşən Gəncə və Mingəçevir şəhərləri, Abşeron, Xızı, Bərdə, Beyləqan, Ağcabədi, Zərdab, Goranboy, Göygöl, Tərtər, Yevlax yaşayış məntəqələri atəşə tutulub. Nəticədə 13-ü qadın, 3-ü uşaq olmaqla, 41 mülki şəxs qətlə yetirilmiş, 206 mülki şəxs yaralanmışdır. Yaralananlar içərisində 44 qadın və 22 uşağın (onlardan 6 körpə) olması daha dəhşətlidir. Ən dəhşətlisi isə Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin təşəbbüsü ilə ərsəyə gəlmiş humanitar atəşkəsin ermənilər tərəfindən vəhşicəsinə pozulmasıdır.

Bütün bunlar haqqında beynəlxalq təşkilatlara müraciət ünvanlayan ziyalılar və vətəndaş cəmiyyəti fəalları arasında mənim soydaşım olan ləzgilərin adını görəndə çox sevindim. Müraciəti azərbaycanlılarla yanaşı, ölkəmizdə yaşayan ruslar, ukraynalılar, gürcülər, ləzgilər, talışlar, yəhudilər, dağ yəhudiləri, Avropa yəhudiləri, tatarlar, tatlar, kürdlər, avarlar, ingiloylar, udinlər, buduqlar da imzalayıblar. Bu insanlar beynəlxalq aləmdən sadəcə obyektivlik, haqq və ədalət tələb edirlər.

Torpaqlarımızın düşmən tapdağından təmizlənməsi məsələsinə gəlincə isə, beynəlxalq aləm inansın ki, – biz buna tam əminik – o işi Azərbaycan Ordusu görəcək. Özü də böyük peşəkarlıqla. Mən fəxr edirəm ki, Dağlıq Qarabağın azadlığı uğrunda həm 90-cı illərdə, həm 2016-cı ildə gedən döyüşlərdə, həm də indiki sülhəməcburetmə əməliyyatlarında iştirak edən ləzgi gəncləri möhtəşəm uğurlara imza atırlar.

Biz inanırıq ki, torpaqlarımız düşmən tapdağından azad ediləcək, əminik ki, Azərbaycan bayrağı ölkəmizin bütün kənd, qəsəbə və şəhərlərində qaldırılacaq. Çünki bu gün Azərbaycan əhalisinin hər nəfəri müsəlləh əsgər kimi Ali Baş Komandanın əmrini gözləyir və onu dəstəkləyir.

***Mayıl BAĞIROV,***
***Qusar rayonu***

Xalq qəzeti 2020.-15 oktyabr.- S.4.